**Könül Kərimova,**
*Biblioqrafik və elektron informasiya xidməti şöbəsinin müdiri*

# AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA İSTİFADƏÇİLƏRƏ BİBLİOQRAFİK VƏ ELEKTRON İNFORMASİYA XİDMƏTİ

**Xülasə:** *Məqalədə Azərbaycan Milli Kitabxanasında biblioqrafik və elektron informasiya xidməti, sənəd-informasiya tələbatçılarının informasiya təminatının ödənilməsində informasiya-axtarış sistemləri, ödənilmiş arayışlar fondunun elektron bazası, biblioqrafik nəşrlər fondu, "Virtual sifariş" və "Biblioqrafik sorğu" xidməti, Kitabxanalararası abonement və xarici dövlətlərlə elektron sənəd mübadiləsi, sərgilərin təşkili kimi məsələlər araşdırılmışdır.*

***Abstract:*** *In the article, bibliographic and electronic information service in the National Library of Azerbaijan, information-search systems for payment of information provision for document-information users, electronic database of paid references fund, bibliographic publications fund, "Virtual order" and "Bibliographic request" service, Interlibrary subscription and electronic document with foreign countries Issues such as exchange, organization of exhibitions were investigated.*

***Резюме:*** *В статье рассматриваются следующие вопросы: библиографическое и электронно-информационное обслуживание в Азербайджанской Национальной Библиотеке; информационно-поисковые системы для обеспечения информационных потребностей пользователей; электронная база выполненного справочного фонда; фонд библиографических изданий; услуги «Виртуальный заказ» и «Библиографический запрос»; Межбиблиотечный абонемент и обмен электронными документами с зарубежными странами; организация выставок.*

***Açar sözlər:*** *Biblioqrafik və elektron informasiya xidməti, informasiya-axtarış sistemləri, elektron xidmətlər, elektron sənəd mübadiləsi, sərgilərin təşkili.*

***Key words:*** *Bibliographic and electronic information service, information-search systems, electronic services, electronic document exchange, organization of exhibitions.*

***Ключевые слова:*** *Библигографические и электронно-информационные услуги, информационно-поисковые системы, электронное обслуживание, обмен электронными документами, организация выставок.*

Məlumdur ki, sənədlər də, tələbatçılar da say və tərkiblərinə görə daim artır, üstəlik sənədlərin sosial mahiyyəti durmadan yüksəlir. Müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürən informasiya daşıyıcısı kimi fəaliyyət göstərən informasiya müəssisələrinin ən mühüm vəsiləsi kitabxana sistemləridir. Durmadan artan sənəd kütləsi arasında dolğun informasiya almaq üçün hər bir tələbatçı kitabxanaya, biblioqrafik xidmətə müraciət etməli olur ki, məhz bu cəhətdən kitabxananın biblioqrafik fəaliyyəti onun elmi-informasiya və mədəni-maarif müəssisəsi olmasını müəyyən edir. Hər bir istifadəçiyə yüksək səviyyəli informasiya vermək, onları bu günümüzün elmi, mədəniyyəti ilə tanış etmək, onlara ən son forma və üsullarla xidmət göstərmək, oxucu auditoriyasını genişləndirərək elmimizə səmərəli informasiya xidməti göstərmək kimi vəzifələrin yerinə yetirilməsi biblioqrafik və elektron informasiya xidmətinin əsas vəzifəsidir.

Azərbaycan Milli Kitabxanasında sənəd-informasiya tələbatçılarının informasiya təminatının ödənilməsində xüsusi rola malik biblioqrafik və elektron informasiya xidməti özünəməxsus müəyyən inkişaf dövrü keçmiş, formalaşmış, illər keçdikcə təkmilləşmiş və kitabxana işinin tərkib hissəsinə çevrilmişdir.

1927-ci ildə "Məlumat-biblioqrafiya bürosu" adı altında işə başlayan, hazırda "Biblioqrafik və elektron informasiya xidməti" adı ilə fəaliyyət göstərən bu şöbə istifadəçilərin sənəd-informasiya tələbatının ödənilməsində mühüm rol oynayır, informasiyalaşmış cəmiyyətin gündən-günə artan informasiya tələbatının ödənilməsi və keyfiyyətinin yüksəldilməsinə, milli-mənəvi dəyərlərin təbliğinə, elmin, mədəniyyətin inkişafına xidmət edir.

Biblioqrafik və elektron informasiya xidməti şöbəsi öz işini aşağıdakı istiqamətdə yerinə yetirir:

- Biblioqrafik və elektron informasiya xidmətinin təşkili (informasiya axtarış sistemləri ilə iş, günün tələbinə uyğun olaraq Soraq-biblioqrafiya aparatının və yardımçı ədəbiyyat fondunu təkmilləşdirmək);
- Ali dövlət orqanları, müəssisə və təşkilatlar, ayrı-ayrı oxucu qrupları tərəfindən müxtəlif mənbələr vasitəsilə (e-poçt, telefon, məktub) alınan biblioqrafik və elektron arayışların (yazılı və şifahi) dəqiq, dolğun və operativ yerinə yetirilməsini təmin etmək;
- Ödənilmiş arayışlar fondunun elektron bazasını formalaşdırmaq;
- Onlayn xidmətlər - Virtual sifariş (Məsafədən sifariş ilə evdən, iş yerindən ayrılmadan kitab sifarişi) və Bibiloqrafik sorğu xidmətini qısa zamanda yerinə yetirmək;

- Kitabxanalararası abonement işinin təşkili, xarici dövlətlərlə elektron sənəd mübadiləsi, respublikamızın digər şəhər və regionlarında yaşayan oxuculara elektron informasiya xidmətini təşkil etmək, həmçinin Bakı və Sumqayıt ərazisində MKS-lərə, idarə və təşkilatlara kitabxanalararası abonement xidməti göstərmək;
- Kitabxanaya daxil olan yeni ədəbiyyatın təbliği məqsədilə "Yeni kitablar" başlıqlı sərginin, əlamətdar və tarixi günlərə həsr olunmuş, həmçinin görkəmli şəxsiyyətlərin, klassiklərin yubileyləri münasibəti ilə onların həyatını, yaradıcılığını əks etdirən sərgilərin və tədbirlərin təşkili;
- Respublikanın elmi, sahəvi və kütləvi kitabxanalarına biblioqrafik köməklik göstərmək.

Milli Kitabxanada sənəd-informasiya tələbatçılarının informasiya təminatının ödənilməsi burada formalaşdırılan, kitabxana fondunu bütünlüklə açan, mükəmməl informasiya-axtarış bazası – kataloq-kartoteka sistemi (elektron, ənənəvi və sistemli kataloq-kartoteka), Azərbaycanşünaslıq üzrə mövzu kartotekası, ödənilmiş arayışlar fondunun elektron bazası, dövri və ardı davam edən nəşrlər fondu, biblioqrafik nəşrlər fondu və bir sıra informasiya axtarış sistemləri, həmçinin internet axtarış sistemi vasitəsilə icra olunur.

Ali dövlət orqanları, müəssisə və təşkilatlar, ayrı-ayrı oxucu qrupları tərəfindən müxtəlif mənbələr vasitəsilə (e-poçt, telefon, məktub) alınan biblioqrafik və elektron arayış şifahi və yazılı formada həyata keçirilir. Yazılı formada icra edilən mürəkkəb mövzu arayışları ödənilmiş arayışlar fondunun elektron bazasında saxlanılır kı, eyni mövzular üzrə sorğular tez-tez təkrar olunan zaman, həm vaxta qənaət edilmiş olur, həm də sorğu operativ cavablandırılır. Bu arayışlardan - "Ümummilli Lider Heydər Əliyev – 100", "Ümummilli Lider Heydər Əliyevin çıxışları, fərman və sərəncamları (1969-1982, 1993-2003)", "Heydər Əliyev - mədəniyyət və incəsənət", "Heydər Əliyev və kitabxanalar", "Heydər Əliyev və multikulturalizm", "Zərifə Əliyeva - 100", "Azərbaycan Milli Kitabxanası – 100", "Qərbi Azərbaycan", "Görkəmli Qərbi Azərbaycanllar", "Şuşa mədəniyyət ili", "Xarıbülbül festivalı", "Azərbaycan mətbəxi", "Azərbaycan musiqisi", "Azərbaycanın şair və yazıçıları", "Azərbaycan ordusu", "Azərbaycan abidələri", "Azərbaycan dili və əlifbası", "Azərbaycan mətbuatı", "İkinci Qarabağ müharibəsi", "Azərbaycanda alman irsi", "Gəmiçilik tarixi", "Əhalinin siyahıya alınması", "Novruz Bayramı", "Mir Cəlal", "Elçin", "Hüseyn Cavid", "Lütfi Zadə" və s. adını çəkmək olar.

Milli Kitabxanada istifadəçilərin sənəd-informasiya tələbatını yüksək səviyyədə ödəmək məqsədilə, biblioqrafik və elektron informasiya xidmətinin

yaxşılaşdırılması istiqamətində bir sıra mühüm addımlar atılmış, inkişaf etmiş texnologiya və proqram təminatlarına malik, innovativ xidmət formaları təşkil edilmiş və cəmiyyətimizin istifadəsinə verilmişdir. Kitabxana-biblioqraflıya proseslərində yeni metodlar, texnika və texnologiyalar tətbiq edilmiş, elektron kataloq daha da mükəmməlləşdirilmiş, elektron kitabxana elektron kataloqa inteqrasiya edilərək "Onlayn oxumaq üçün" düyməsi vasitəsilə resurslar tam mətni ilə istifadəyə verilmiş, nəticədə ənənəvi kitabxana-informasiya axtarışı ilə uzaq məsafədən informasiya axtarışı üzvi şəkildə əlaqələndirilmişdir. Elektron xidmətlərdən daha asan və operativ istifadə, kitabxananın fondlarına daxil olan dəyərli elmi nəşrlərin elektron formada təqdim olunması istifadəçilərin, xüsusilə də gənc tədqiqatçıların elm və tədqiqat sahəsinə axınının güclənməsinə təsir edir, elmimizin həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə təbliğində mühüm əhəmiyyət daşıyır.

Milli Kitabxanada artıq bir neçə ildir tətbiq olunan virtual biblioqrafik sorğu və virtual-məsafədən kitab sifarişi xidməti Biblioqrafik və elektron informasiya xidməti şöbəsi tərəfindən icra edilir. Oxucu ona lazım olan hər hansı mövzu üzrə kitabların kitabxanada olub-olmamasını virtual biblioqrafik sorğu xidməti vasitəsilə 20-25 dəqiqəyə öyrənə bilir və kitabxananın fondlarında mövcud olan informasiya resurslarını virtual olaraq evdən və yaxud iş yerindən sifariş edə bilir və o, həm kitabxanaya gələrkən kitabların axtarışına əlavə vaxt itirmir, həmçinin, fondlarda mövcud olmayan resurslar üçün əbəs yerə vaxt itirərək kitabxanaya gəlməkdən azad olur.

Biblioqrafik və elektron informasiya xidməti şöbəsi tərəfindən kitabxanalararası abonement işinin təşkili, xarici dövlətlərlə elektron sənəd mübadiləsi, respublikamızın digər şəhər və regionlarında yaşayan oxuculara elektron informasiya xidməti təşkil edilir, həmçinin Bakı və Sumqayıt ərazisində MKS-lərə, idarə və təşkilatlara kitabxanalararası abonement xidməti göstərilir. Məlum olduğu kimi, ayrı-ayrı kitabxanalar, idarə və təşkilatlar mütaliə sorğularının hamısını öz kitabxanaları hesabına ödəyə bilmirlər. Yəni öz fondlarında olmayan ədəbiyyatı Milli Kitabxanadan kitabxanalararası abonement vasitəsilə müvəqqəti istifadə üçün götürüb, mütəliə edirlər.

Həmçinin, xarici dövlətlərin kitabxanalarında və Milli Kitabxananın fondunda olmayan, oxucu sorğusu əsasında ədəbiyyatlar, sənədlərin elektron çatdırılması və kitabxanalararası abonement xidmətləri vasitəsilə mübadilə olunur. Bu işin təşminləşdirilməsi məqsədilə hər il Rusiya Dövlət Kitabxanasının təşkilatçılığı ilə MDB ölkələrinin kitabxanaları arasında keçirilən "Sənədlərin elektron çatdırılması və kitabxanalararası abonement xidmətlərinin göstərilməsi" («Предоставление услуг по межбиблиотечному абонементу и

электронной доставке документов (МБА и ЭДД)») mövzusunda onlayn elmi-praktik konfransda iştirak edilir. MDB ölkələrinin kitabxanalarının rəhbərləri və mütəxəssislərinin qatıldığı onlayn elmi-praktik konfransda kitabxanalarda sənədlərin elektron çatdırılması və kitabxanalararası abonement fəaliyyətinin vəziyyəti və problemlərinə dair, işin təkmilləşdirilməsi və optimallaşdırılması ilə bağlı məsələlər müzakirə edilir. Bu konfrans dünya istifadəçilərinə verilən "yox" cavablarının sayının minimuma endirilməsinə və mütəxəssislərə kitabxana xidmətinin səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Biblioqrafik və elektron informasiya xidməti şöbəsinin fəaliyyət istiqamətlərindən biri də sərgilərin və tədbirlərin təşkilidir. Məlumdur ki, ədəbiyyatın geniş ictimaiyyətə təqdim olunmasının, təbliğinin ən başlıca vasitələrindən biri sərgilərin təşkilidir. Bu, həm də mütaliə mədəniyyətinin formalaşdırılması, inkişafı, populyarlaşdırılması nöqteyi-nəzərindən çox vacib məsələlərdəndir. Sərgilər kütləvi işin vizual formalarıdır və oxucu ilə kitab arasında birbaşa təmas üstünlüklərinə malikdir. Kitabxanalarda sərgilərin təşkili cəmiyyətin informasiya təminatının ödənilməsində mühüm rol oynayır.

Kitabxanada təşkil olunan sərgilər kitabxana istifadəçilərinə baxmaq və tanış olmaq üçün tövsiyə edilən, xüsusi seçilmiş və sistemləşdirilmiş çap məhsullarının kütləvi nümayişidir. Sərgi fəaliyyəti görünmə prinsipinə əsaslanır və biblioqrafik, faktoqrafik xidmətlərin əsasında uğurla həyata keçirir. Hər bir sərgi konkret oxucu ünvanına malikdir. Sərgilər istifadəçilərə dərs vəsaitləri və dərsliklərdən fərqli olaraq, müəyyən məsələlərin öyrənilməsində kömək edir və informasiyanı kompleks şəkildə təqdim edir.

Kitabxanada təşkil edilən əyani (ənənəvi) sərginin məqsəd və ümumi məzmununa görə bir neçə qrupa bölünür:

- Kitabxanaya yeni daxil olan kitablar haqqında məlumat xarakterli universal sərgilər;
- Əlamətdar və tarixi günlərə həsr edilmiş sərgilər;
- Görkəmli şəxsiyyətlərin, klassiklərin yubileylərinə həsr edilmiş şəxsi sərgilər;
- Sosial problemlərə həsr olunmuş sərgilər;
- Vətənpərvərlik mövzusuna həsr olunmuş sərgilər;

Yeni kitabların sərgisi kitabxanaya yeni daxil olmuş nəşrlər haqqında müntəzəm məlumat vermək məqsədi daşıyır. Yeni alınmış kitablar sərgidə müəyyən qaydada, elm sahələri üzrə - ictimai-siyasi elmlər, bədii ədəbiyyat, təbiət elmləri, kənd təsərrüfatı və s. düzülür. Sərgi bir həftə müddətində yenilənir.

Əlamətdar və tarixi günlərə həsr edilmiş sərgilər, müəyyən bir mövzuya həsr olunmuş kitabları istifadəçilərə əyani şəkildə tövsiyə etməkdən ibarətdir. İstifadəçilərə təqdim olunan mövzu sərgilərindən "8 mart - Beynəlxalq Qadınlar Günüdür", "Beynəlxalq Teatr Günü", "18 aprel - Tarixi Abidələrin Mühafizəsi Günüdür", "9 may - Faşizm Üzərində Qələbə Günü" və s. adını çəkmək olar. Əlamətdar və tarixi günlərə həsr edilmiş sərgilər bir həftə davam edir.

Milli Kitabxanada dünya miqyasında tanınmış görkəmli şəxsiyyətlərin, klassiklərin, eləcə də Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının, elminin inkişafında misilsiz rol oynamış sənətkarlarımızın unudulmaması, onlara layiq oduqları ehtiramın göstərilməsi, təbliği, həmçinin Azərbaycan Respublikası Prezidentinin sərəncamlarından irəli gələn yubileylərin keçirilməsi məqsədilə sərgilər və tədbirlər təşkil edilir. Bu sərgilərin və tədbirlərin təşkili, görkəmli şəxsiyyətlərin, klassiklərin həyatı, yaradıcılığı və ictimai-siyasi fəaliyyəti ilə bağlı ədəbiyyatların seçilib sərgilənməsi təbliğatın mühüm istiqamətlərindən biridir. İstifadəçilərə təqdim olunan bu sərgilərdən "Xurşid-banu Natəvan-190", "Görkəmli ədəbiyyatşünas alim Mir Cəlal Paşayev", "Akademik Arif Paşayev", "Xalq yazıçısı Elçin" və s. adını çəkmək olar. Görkəmli şəxsiyyətlərin, klassiklərin yubileylərinə həsr edilmiş sərgilər bir həftə davam edir.

Sosial problemlər haqqında sərgilər cəmiyyətin sosial problemlərinə həsr olunur və istifadəçiləri maarifləndirmək məqsədi daşıyır. Sosial problemlərə həsr olunmuş sərgilərdən "1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür", "26 iyun - Narkomaniyaya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günüdür", "3 dekabr - Beynəlxalq Əlillər Günüdür", "10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günüdür" və s. adını çəkmək olar. Sosial problemlərə həsr olunmuş sərgilər bir həftə davam edir.

Vətənpərvərlik mövzusuna həsr olunmuş sərgilər gənclər arasında vətənpərvərlik hissinin gücləndirilməsinə, Azərbaycançılıq, dövlətçilik ideologiyası ilə bağlı təbliğat işlərinin sürətləndirilməsinə, dövlət rəmzlərinin və milli bayramların təbliğ olunmasına, gənclərin daima yüksək fiziki və hərbi hazırlığının olmasına, qədim dövlətçilik ənənələrinin qorunub saxlanılmasına xidmət edir. "Azərbaycan Xalq Bayramı - Novruz", "Aprel döyüşləri və ya dördgünlük müharibə", "15 iyun – Milli Qurtuluş Günü", "18 sentyabr – Milli Musiqi Günü", "8 Noyabr – Zəfər Günü", "31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və s. vətənpərvərlik mövzusunda sərgilər də bir həftə nümayış olunur.

Milli Kitabxanada illik sərgilər də təşkil edilir ki, burada sərgilənən ədəbiyyatlar ilboyu davam edir və mütəmadi olaraq yenilənir. "Qarabağ

Azərbaycandır!”, “Böyük Azərbaycan şairi və mütəfəkkiri – Nizami Gəncəvi”, “2022-ci il - Şuşa İli” və s. sərgilərin adlarını çəkmək olar. Hal-hazırda kitabxananın Sərgi zalında il boyu davam edən və yenilənən 3 daimi sərgi oxucuların ixtiyarına verilmişdir:

- “2023 – Heydər Əliyev ili” - 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixdə 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi haqqında sərəncam imzalamışdır. Bununla əlaqədar olaraq Milli Kitabxananın Sərgi zalında ilboyu davam edən və yenilənən “2023 – Heydər Əliyev ili” adlı geniş kitab sərgisi təşkil edilmişdir. Sərgidə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatı, ictimai və siyasi fəaliyyətini əhatə edən müxtəlif dildə ədəbiyyatlar nümayiş olunur.
- “Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı” - 2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilmişdir. Bununla əlaqədar olaraq Milli Kitabxananın Sərgi zalında ilboyu davam edən və yenilənən “Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı” adlı Şuşa şəhərinin tarixi, mədəniyyəti, musiqisi və ədəbi mühiti, tarixi və memarlıq abidələri və s. əhatə edən müxtəlif dildə ədəbiyyatların sərgisi nümayiş olunur.
- “Qədim yurd yerimiz Qərbi Azərbaycan” - 2022-ci ilin dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup Qərbi Azərbaycan ziyalıları ilə görüşü olmuşdur. Həmin tarixi tədbirdə dövlət başçısı o yerlərin Azərbaycan torpaqları olması və məhz ona görə də ermənilərin deportasiyaya məruz qoyduqları insanların öz ata-baba torpaqlarına qayıdışının reallaşacağını bildirmişdir. Bu şüara qoşularaq Sərgi zalında “Qədim yurd yerimiz Qərbi Azərbaycan” başlıqlı daimi və mütəmadi yenilənən ədəbiyyat sərgisi təşkil edilmişdir. Sərgidə Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, görkəmli ziyalıları, musiqisi və ədəbi mühiti, incəsənəti və memarlıq abidələri, mətbuatı, azərbaycanlıların dədə-baba yurdlarından kütləvi şəkildə və zorakılıqla deportasiya olunması haqqında zəngin materiallar öz əksini tapıb.

Kitabxana tərəfindən sərgilərin və tədbirlərin təşkil olunması tərtb edilmiş illik iş planı əsasında həyata keçirilir. Plan əlamətdar günlər, təqvimdə göstərilən yubileylər, kitab təqdimatları, konfranslar, seminarlar və s. nəzərə alınaraq tutulur.

Kitab təqdimatı bütün kitablara deyil, geniş ictimaiyyət, müxtəlif oxucu qrupları üçün maraq obyekti olan, ölkənin ictimai-siyasi həyatına, iqtisadiyyatına, maarif və mədəniyyətinə, xalqın, dövlətin həyatında böyük xidmətləri olan, ictimai-siyasi və dövlət, elm, maarif, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin həyat və fəaliyyətlərini əks etdirən kitablara həsr olunur. O cümlədən, il ərzində Milli Kitabxanada Azərbaycan şairi Nizami Gəncəvinin "Şeirlər məcmuəsi"nin, TÜRKSOY-un nəşr etdirdiyi "Əhməd Cavaddan seçmə şeirlər", Səkinə Turabqızının "Əsir Xocalı", Anarın çoxcildlik "Söz dünyası", Milli Kitabxananın nəşr etdiyi not məcmuələrinin və biblioqrafiyaların ("Lütfi Zadə. Biblioqrafiya", "Hüseyn Cavid: Biblioqrafiya", "Əhməd Cavad: biblioqrafiya", "Rauf Hacıyev: biblioqrafiya" və s.) təqdimat mərasimi keçirilmişdir.

Konfrans (latınca conferentia-müzakirə) bir qrup elmi, ictimai tədris, müəssisə və təşkilatların, həmçinin dövlətlərin, qurumların nümayəndələrinin müəyyən əhəmiyyətli, xüsusi məsələlərin müzakirəsi üçün toplanmış yığıncağıdır. Milli Kitabxanada aktual problemlərə həsr olunmuş konfranslar keçirilir. Bu il Azərbaycan xalqının böyük oğlu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu" adlı respublika elmi konfransı, "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" mövzusunda elmi konfrans, "Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik" illik siyasi məktəbinin növbəti dərsi keçirilmiş və konfranslarda Ümummilli Lideri Heydər Əliyevin həyatı, ictimai-siyasi fəaliyyətinə həsr olunmuş kitab sərgisi təşkil edilmişdir.

Milli Kitabxana tərəfindən səyyar sərgilər və tədbirlər təşkil edilir. Kitabxanadan kənar müəssisələrdə - Heydər Əliyev Mərkəzində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə professor Kərim Tahirovun "Heydər Əliyev və Milli Kitabxana" kitabının təqdimat mərasimi, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli yazıçı Mir Cəlalın anadan olmasının 115 illik yubileyinə həsr olunmuş "Mir Cəlal və ədəbi-tarixi proses" mövzusunda elmi sessiya və mövzu ilə əlaqədar kitab sərgisi, Xalq yazıçısı Elçinin 80 illik yubileyi münasibətilə "İki əsrin görkəmli sənətkarı" mövzusunda elmi sessiya və geniş kitab sərgisi, Azərbaycan Milli Kitabxanasının nəşr etdiyi biblioqrafik göstəricilərin AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna təqdim edilməsi mərasimi, Azərbaycan Maliyyə-İqtisad Kollecində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə "Ümummilli Lider Heydər Əliyev və kitab" mövzusunda tədbir və Ulu Öndərin Milli Kitabxanaya hədiyyə etdiyi kitab kolleksiyasının sərgisi,

R.Mustafayev adına Milli İncəsənət Muzeyinin İtalyan zalında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Memarlar İttifaqının və Azərbaycan Milli Kitabxanasının birgə nəşr etdiyi Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf olunmuş Xəlil Cəfərovun "Azərbaycan memarlıq elementləri" kitabının təqdimat mərasimi və s. keçirilib.

Milli Kitabxana eyni zamanda, həm ölkəmizdə, həm də xarici ölkələrdə keçirilən beynəlxalq kitab sərgilərində iştirak edir. Artıq 10 ildən çoxdur ki, Azərbaycan hər il Frankfurt, İstanbul, London, Moskva, Tehran, Budapeşt, Praqa və s. beynəlxalq kitab sərgilərinin iştirakçısı olur. Beynəlxalq kitab sərgilərində iştirak və ya təmsil olunmaq təkcə Azərbaycan kitablarının bu sərgilərdə nümayişi ilə məhdudlaşmır, kompleks təbliğat xarakteri daşıyır. Belə ki, bu sərgilərdə yerli ziyalıların, alimlərin, xarici ölkə səfirlərinin, diaspor təşkilatlarının və sərgi ziyarətçilərinin iştirakı ilə müxtəlif kitab təqdimatları, yubiley tədbirləri, tanıtım mərasimləri təşkil olunur, poeziya saatları və s. tədbirlər də keçirilir.

Ənənəvi qayda olaraq respublikamızda da hər il Beynəlxalq kitab sərgi-yarmarkası təşkil edilir. Beynəlxalq kitab sərgilərinin əhəmiyyətli cəhətlərindən biri də ondan ibarətdir ki, bu sərgilər Azərbaycan Milli Kitabxanası ilə xarici ölkələrin milli kitabxanaları arasında qarşılıqlı əlaqələrin genişlənməsinə imkan yaradır, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığa geniş üfüqlər açır, faydalı təcrübə mübadiləsinə imkan yaradır, Milli Kitabxananın fondunun zənginləşməsinə kömək edir və beynəlxalq miqyasda inteqrasiyanı gücləndirir.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 sentyabr 2022-ci il //Azərbaycan.- 2022.- 30 sentyabr.- S.1.

**2.** Əliyev, İ.H. Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız əzəli torpaqlarına qayıdacaqlar: Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olması, giriş nitqi və bir qrup ziyalı ilə görüşü /İlham Heydər oğlu Əliyev //Azərbaycan.- 2022.- 25 dekabr.- S.1-4.

**3.** Əliyev, Z. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti /Zöhrab Əliyev; Elmi red.: N. İsmayılov; Rəyçilər: Ə.Xələfov, R.Vəzirova.- Bakı: Bakı Universiteti, 2001.- 144 s.

**4.** Xələfov, A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri /Abuzər Xələfov //Respublika.- 2002.- 17 aprel.- S.4.

**5.** Tahirov, K. Beynəlxalq kitab sərgiləri Azərbaycan həqiqətlərinin təbliğində əhəmiyyətli rol oynayır /Kərim Tahirov //Xalq qəzeti.- 2015.- 17 sentyabr.- S.9.

**6.** Tahirov, K. Müasir dövrdə kitabxanalar üçün yeni çağırışların, yeni ideyaların və yeni tələblərin əsas istiqamətləri /Kərim Tahirov //Elmi Əsərlər /Azərbaycan Milli Kitabxanası.- 2017.- IX buraxılış.- S.10-16.

**7.** Книжная выставка в современной библиотеке: основные требования и правила создания: методическое пособие /Иркут. обл. гос. универс. науч. б-ки им. И.И.Молчанова Сибирского; составители: Н.А.Владимирова, Ю.Н.Потапова.- Иркутск: ИОГУНБ, 2020.- 45 с.